# "Çin çıxan yuxular məni narahat edir"

*Yuxu həyatın tərs üzüdür. Bizim hər gün rastlaşdığımız insanların, hadisələrin o üzü. Burada zaman yoxdur. Şüurumuzun qaranlıq guşələrinə düşən bir qırıq işıqdır yuxu. O işığın içində tez-tez xatırladığımız, unuda bilmədiyimiz, hər gün düşüncəmizin küçələrində əli cibində veyil-veyil dolaşan adamlar yaşayır. Yuxudakı xatirələr, düşüncələr, əzablar, sevgilər, xəyallar, ümidlər bizim o biri dünyamızın sakinləridir. Yuxu bizi sarsıda da bilər, sevindirə də. Bəzən beynimizin içində eynən çöl boyu yüyürən atlar sayaq insanların xatirələrinin axını olur. Bu kütləvi axını bizə yuxular göstərir, qırıq-qırıq, zəif ssenaridə, montajı olmayan film kimi. Məşhur psixoanaliz Ziqmund Froyd yuxular haqqında ”Yuxuların yozumu” kitabını yazmışdır. Froyda görə, yuxular bizim şüurumuzda mövcud olan həyatımızdır.*

*”Yuxu qapısı” rubrikasının bu dəfəki qonağı şairə Elnaz Eyvazdır. Adalet.az müsahibəni təqdim edir:*

**- Froyda görə, yuxu mənasız bir şey deyil, sıxışdırılmış arzuların təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşməsidir.Sizin fikriniz necədir?**

- Böyük çıxmasın, Froydun fikirlərilə razıyam. Yuxu həm də sirri açılmayan bir nəsnədir, məncə. Bəzən adam ürəyində qalan arzularının yuxuda gerçəşlədiyini görür. Günlərlə təsirindən çıxa bilmir.

**- Yuxularınız həyatınıza necə təsir göstərir, yəni gördüyünüz yuxuya görə planlarınızı qurursunuz?**

- Əvvəllər daha çox inanardım yuxuya. Elə yuxular görərdim ki, günlərlə təsirindən çıxa bilməzdim. Ancaq heç vaxt planlarımı yuxularıma görə qurmamışam.

**- Yuxudan sonra onun yozumları haqda baş sındırırsız?**

- Dediyim kimi, inandığım vaxtlarda hə. Amma indi yuxularımı özüm idarə etməyə çalışıram. Məsələn, yuxudan ayılan kimi gördüyüm yuxunu xatırlamamağa çalışıram. Onsuz da xatırlamasam, tədricən unudulur. Xatırlasam belə, istənilən yuxunu xeyrə yozuram. Özümü buna inandırıram: yaxşı yuxudursa, çin olacağına, pis yuxudursa, tərsi olacağına.

**- Yuxuların mistik hadisə olduğuna inanırsınızmı?**

- Bir o qədər də yox. Mənə elə gəlir ki, yuxu insanın şüuraltı aləmilə bağlıdır. Nəyin haqqındasa günlərlə düşünəndə, kiməsə deyəcəyim sözləri götür-qoy edəndə yuxuda eyni şeyləri görürəm, deyəcəyimi nöqtə-vergülünə qədər yuxuda deyirəm. Yaxud da gec yeyəndə, yatmazdan qabaq ağır yemək yeyəndə, əlbəttə ki, yuxunu qarışdıracaqsan. Yəni bir növ yuxularımızın istiqamətini özümüz müəyyənləşdiririk deyə, tam mistik hadisə olduğuna inanmıram.

**- Gördüyünüz yuxular çin olurmu, ya da əksinə?**

- Əvvəllər gözlərimi açan kimi yuxumu xatırlamağa çalışardım. Demək olar, tam da xatırlayardım. Çoxu çin çıxırdı deyə, getdikcə yuxularım məni narahat etməyə başladı. Pis yuxu görəndə səksəkədə olurdum. Əhvalıma pis təsir edirdi. Odur ki, sonralar yuxularımı unutmağa, xatırlasam da, xeyrə yozmağa çalışdım.

**- Həyatınızda gördüyünüz ən yadda qalan yuxu və ən gözəl yuxu hansılardır?**

- Yadımda çox yuxularım qalıb. Yaxşısı da, pisi də var arasında. Məsələn, tələbə olanda Sovetskidə qalırdım. Ev yiysəi yaşlı və çox yaxşı bir qadın idi. Xətrimi çox istəyirdi, həmişə mənə deyirdi, sənin yatdığın o çarpayıda yatan kirayəçilərim tanınmış adamlar olub sonradan, səndən də onu gözləyirəm.

Qış tətilində idim. Bir gün həyətdə qalan qızlardan biri zəng elədi ki, bəs xala ölüm ayağındadır, deyib ki, Elnaz gəlib əşyalarını götürsün, o, universitetə evlərindən də gedib-gələ bilər, sən rayondansan, köç onun otağına. İnanmadım, amma ürəyim qırıldı sanki. Gəldim, çata bilmədim. Qadın dünyasını dəyişmişdi. Çox pis oldum ki, vidalaşa bilmədim. Bir yandan da həqiqəti öyrənə bilmədim. Daha doğrusu, başqa şahidləri vardı, dedilər yalandır, o elə söz deməyib. Amma mən tərsliyimə saldım, əşyalarımı yığıb çıxdım.

Hardasa iki həftə keçdi. Çox xiffət edirdim, düşünürdüm. Bir gün yuxuda gördüm, oturub balaca qaranlıq otaqda. Yüyürdüm üstünə ki, bəs sən sağsanmış! Dedi yaxın gəlmə, sənin yerin bura deyil, sənin yerin yuxarıdadır, - əlilə yuxarı mərtəbəni göstərdi. Səni hamı tanıyacaq, get burdan. Dedim, səndən küsmüşəm. Niyə məni evdən çıxardın? Dedi, yalandır, ağ yalandır! İnanma! Səni nə qədər istədiyimi bilirsən! Arxayın ol, mən elə söz deməmişəm. Deməmişəm, müvəqqəti evlərindən gedib-gəlsin. Bu qız bitirir məktəbi. O biri semestrdən yenə qayıdarsan. Sən ora qayıdacaqsan yenə, qayıdanda həmin çarpayıda yatarsan.

Tər-suyun içində ayıldım. Sonradan məlum oldu ki, doğrudan da, söhbət yuxuda gördüyüm kimi olubmuş. Və bir ildən sonra mən yenə həmin evə qayıtdım, evin təzə sahibəsi özü zəng edib çağırdı (rəhmətliyin yaxın adamı idi).

Bir əmim oğlu vardı, həm də sinif yoldaşı idik. Hərbi xidmətə təzə getmişdi, andiçməsi olmamışdı heç. Bir gecə yuxuda gördüm bunlara getmişəm, görürəm bacıları ağlamaqdan əldən düşüb, anasının başı ağappaq olub, atası da otaqdan çölə çıxımır, xəstədir. Bacısından soruşdum nə olub sizə? Dedi, bəs qardaşım ölüb. Ağlayıb yorulmuşuq, gəl sən də ağla. Dedim, nə danışırsan, necə yəni ölüb?



Qaçdım evdən, özümü dəniz sahilinə atdım. Guya evləri dənizin düz qırağında imiş. Təzə evə köçmüşdülər, hələ görməmişdim. Oturdum sahildə o ki var ağladım. Bir də gördüm özü gəlir, amma tam görmürəm, qurşaqdan yuxarısı görünür, aşağısı dumanda qalıb. Qaçdım üstünə ki, qucaqlayam. Dedi, mən ölmüşəm. Yalvardım, dedim, səni aldadırlar, ölməmisən, axı burdasan. Dedi, inanmadın deyə, gəldim ki, özüm deyəm. Yaram ağrıyır, çox ağrıyır. Elə pis ölmüşəm ki...

Təsəvvür edin ki, ayılandan sonra mən nə hala düşərəm? Günlərlə fikirləşməkdən dəli olurdum, heç kimə də yuxumu danışa bilmirdim. Heç bir ay keçdimi, keçmədimi, hərbi hissədə əlində qumbara partladı, özü də partlayacağını görüb qumbaranı özünə sıxmışdı, təsəvvür edin də nə hala düşər. Faciəvi şəkildə həlak oldu. İnanın, dəfnə gedəndə gördüm evləri eynən yuxuda gördüyüm ev, özü də düz dənizin sahilində. Bacısının boynuna sarılıb ağladım, qayıtdı mənə ki, ağla, bacı, biz ağlayıb yorulmuşuq...

Üstündən 17 il keçib, hər dəfə bu yuxu yadıma düşəndə eyni hissləri keçirirəm, mümkün qədər xatırlamamağa çalışıram...

Doğulmamışdan qabaq da yuxuda qızımı görmüşdüm. Öncədən öyrənməmişdim qız, ya oğlan olacağını, amma həkimlər bütün əlamətlərinə görə oğlan olacağını deyirdilər. Doğulmamışdan bir həftə əvvəl gördüm totuq-motuq bir qız uşağını bələyib qoydum divanın üstünə.

Bu yaxınlarda heç evlərinin yerini bilmədiyim bir adamın evini yuxuda gördüm. Üstündən bir müddət keçdi, təsadüfən yolum düşdü. Baxdım ki, eynən yuxuda gördüyüm bina.

**- Bəzi adamlar yuxuda ağ-qara filmə baxırlar. Bunun səbəbi hələ bilinmir. Amma alimlər onu bildirir ki, insanların 12 faizi ağ-qara yuxu görür. Siz necə düşünürsünüz?**

- Bu barədə heç düşünməmişəm, düzü. Nə bilim, mənə elə gəlir, gördüyüm yuxuları realda görürəmmiş kimi görürəm. Hətta bu yaxınlarda bir şeirimi yuxuda yazmışam. Gördüm bir adam gəlib oturdu yanımda, başını qoydu çiynimə. Əyilib üzünə baxdım, elə bildi gedirəm. Dedi:

**Hamıdan gizlinimsən,**
**Sən mənimsən, mən yadın.**
**Dayan, tərpənmə, getmə,**
**Anam da yoxdu, Qadın.**

Ayıdlım və ayılan kimi bu bir bəndi əzbər xatırladım. Tez köçürdüm vərəqə, dalınca da ardını yazdım ki:

**Dur, başımı çiyninə**
**qoyub bir az uyuyam.**
**Kimsə bilmədi məni,**
**mən bir dərin quyuyam.**
**Susduqca dinlə barı,**
**gör necə səsim gəlir.**
**Hamıdan köçüb gələm,**
**Səndə öləsim gəlir...**

**- Hansı doğmanızı daha çox yuxuda görürsünüz?**

- Ata-anamı, qızımı, qardaşımı...Görünür, onlar mənə görə daha çox narahatdır, çox düşünürlər məni, tez-tez yuxuma girirlər.

**- Yunan filosofu Heraklın yuxu haqda məşhur bir sözü var: ” Oyanıq olan insanlar üçün tək bir dünya vardır. Yuxuda olanların isə hər birinin ayrı bir aləmi vardır, onun içində hey fırlanırlar”. Siz necə fikirləşirsiniz?**

- Mənim oyaq olanda da, yuxuda olanda özümə məxsus dünyam var. Yuxularım da o dünyamın bir parçasıdır. Bəzən qurtula bildiyim, bəzən qurtulmağı bacarmadığım...

**- Sizə görə yuxularımız həqiqətə çatdırır bizi?**

- Yox, mənə görə, bizi həqiqətə düşüncələrimiz çatdırır. Bu gün durduğum yerdən geri boylananda görürəm ki, bu günəcən və bu gün yaşadıqlarım nə vaxtsa ixtiyari və ya qeyri-ixtiyari düşündüklərimdir, bu düşündüklərimin arasında arzu etdiklərim olanlar da var, olmayanlar da. Biz həyatımızı beynimizdə proqramlaşdırırıq. Yaşadıqlarımızın çox cüzi bir hissəsi qismətdir, yazıdır. Qalanı seçimimizdir. Nə düşünürüksə, onu da çağırırıq və yaşayırıq.

**Oğuz Ayvaz**

## *Azərbaycandakı uşaqların sayı açıqlanıb*

**”Erkən yaşda ailələrin qurulması, uşaqların təhsildən yayınması, əməyə cəlb olunması, onlara qarşı zorakılıq edilməsi uşaq hüquqlarının pozulması hallarıdır. Azərbaycanda uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir”.**

**Adalet.az xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bu gün ”Uşaq hüquqları: bərabər hüquq və imkanlarımız” mövzusunda keçirilən tədbirdə bildirib. O qeyd edib ki, hazırda ölkədə iki milyon altı yüz minə yaxın uşaq var:**

**”Bu uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması, sağlam ailə mühitində yaşaması üçün mühüm sosial layihələr həyata keçirilir. Eyni zamanda, məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafı, onların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması vacib məsələlərdəndir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara dövlət qayğısının göstərilməsi də önəm daşıyır”.**

**H.Hüseynova qeyd edib ki, uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacibdir. Keçən dövr ərzində uşaq hüquqları sahəsində qanunvericilik bazası daha da təkmiləşdirilib.**

**Komitə sədri əlavə edib ki, ”Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və 2016-2030-çu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərini əsas götürərək, uşaq hüquqlarının müdafiəsi sahəsində gələcək hədəf istiqamətlər üzrə mühüm sənədlər hazırlanır:**

**”Artıq Uşaq Strategiyası yekunlaşdırılıb, adiyyatı qurumlara göndərilib. Uşaq Məcəlləsi ilə bağlı müəyyən iş aparılır”.**

## *Aralıq dənizində faciə - 100 nəfər öldü*

**Liviya sahillərində qanunsuz miqrantlarla dolu qayıq batıb.**

**Adalet.az xəbər verir ki, Aralıq dənizində, Liviya sahillərində içərisində miqrantlarla dolu qayıq batıb. Təxminən 100 nəfər ölüb, 96 nəfər itkin düşüb. Cəmi 27 nəfər qanunsuz miqrantın həyatını xilas etmək mümkün olub.**

**Hava şəraitin pisləşməsinə baxmayaraq, hər gün yüzlərlə miqrant Liviyadan qaçaraq Avropa sahillərinə üz tuturlar. Bu ilin əvvəllərindən Aralıq dənizində 4 mindən çox qanunsuz miqrant dünyasını dəyişib.**